# Təbib

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 22 (1683) 31 dekabr 2018 - ci il Qiymәti 50 qәpik




# Dünya azərbaycanlılarına

## Əziz həmvətənlər!
## Hörmətli soydaşlar!

Milli birliyimizin rəmzi kimi hər il geniş qeyd etdiyimiz 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə sizi səmimi qəlbdən salamlayır, hamınıza xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq ideyalarını yaşadan müstəqil dövlətimiz milli həmrəyliyin gücləndirilməsinə xüsusi əhəmiyyət verir, dünya azərbaycanlılarının mədəni-mənəvi birliyinin daha da möhkəmləndirilməsi ilə bağlı ardıcıl tədbirlər həyata keçirir. Biz xarici ölkələrdə məskunlaşmış həmvətənlərimizin doğma Azərbaycanla əlaqələrinin dərinləşdirilməsi və ümummilli məsələlərin həllində yaxından iştirakının təmin edilməsi istiqamətində irəli sürülən səmərəli təşəbbüslərə hər zaman dəstək veririk.

2018-ci il xalqımızın tarixində şərəfli yer tutan Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin geniş şəkildə keçirilməsi ilə yaddaşlarda qalacaqdır. Belə əlamətdar yubileyin təntənə ilə qeyd edilməsi həmvətənlərimizin qəlbində azadlıq və istiqlal duyğularını, ölkəmizin zəngin tarixi ilə haqlı iftixar hissini daha da gücləndirir. Bu gün əminliklə demək olar ki, 100 il əvvəl mühacir həyatı yaşamağa məcbur olmuş Cümhuriyyət qurucularının və onların varislərinin Azərbaycanı müstəqil və qüdrətli dövlət kimi görmək arzuları artıq xoş gerçəkliyə çevrilmişdir.

Dünyada gedən mürəkkəb geosiyasi proseslərə, müharibə və silahlı qarşıdurmalara, qaçqın və məcburi köçkün problemlərinə, qlobal iqtisadi çətinliklərə baxmayaraq, Azərbaycan Respublikası qarşıya qoyduğu böyük məqsədlərə doğru inamla irəliləyir. Ölkəmizin sosial-iqtisadi sahədə əldə etdiyi uğurların nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilməsi bunu bir daha əyani surətdə sübut edir. Dünya Bankının “Doing Business 2019” hesabatında Azərbaycan ötən illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşmış, 10 ən islahatçı dövlət siyahısına daxil edilmişdir. Ölkəmizin təşəbbüsü və yaxından iştirakı ilə irimiqyaslı transmilli layihələr uğurla icra olunmuşdur. 2018-ci ildə Avrasiyanın enerji xəritəsinin zənginləşməsində mühüm rol oynayan “Cənub Qaz Dəhlizi”nin və onun tərkib hissəsi olan TANAP boru kəmərinin istifadəyə verilməsi, həmçinin Ələt-Astara magistral avtomobil yolunun açılışı ilə Azərbaycan ərazisində “Şimal-Cənub” beynəlxalq nəqliyyat dəhlizi layihəsi üzrə bütün işlərin başa çatdırılması dövlətimizin iqtisadi potensialının artması, regionun tranzit və logistika mərkəzinə çevrilməsi, geoiqtisadi mövqeyinin güclənməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Cari ildə həm də növbəti telekommunikasiya peyki “Azerspace-2”nin orbitə buraxılması respublikamızın müasir rabitə və informasiya texnologiyaları sahəsində qazandığı nailiyyətlərin bariz təzahürüdür.

Ölkəmiz inkişaf etdikcə, daha qlobal xarakterli vəzifələri həll etmək imkanları da artır. Qarşımızda Ermənistanın hərbi təcavüzü nəticəsində işğal edilmiş torpaqlarımızın azad olunması kimi taleyüklü vəzifə dayanır. Azərbaycan pozulmuş ərazi bütövlüyünün bərpası yolunda ardıcıl və məqsədyönlü siyasət həyata keçirir. Soydaşlarımız da, öz növbəsində, yaşadıqları ölkələrin yüksək dairələrinin və nüfuzlu beynəlxalq təşkilatların diqqətinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə yönəldillməsində, tarixi həqiqətlərin geniş ictimaiyyətə çatdırılmasında fəallıq nümayiş etdirməlidirlər. Azərbaycanın inkişafı və dünya birliyində mövqeyini möhkəmləndirməsi üçün hər bir həmvətənimiz ümummilli məqsədlər ətrafında sıx birləşməli, diaspor təşkilatlarının fəaliyyəti daha çevik əlaqələndirilməlidir. Əminəm ki, dünyanın hansı guşəsində yaşamasından asılı olmayaraq, bütün soydaşlarımız və həmvətənlərimiz bu prinsiplərə əsaslanaraq qarşıdakı illərdə də üzərlərinə düşən vəzifələrin yerinə yetirilməsində qüvvə və bacarıqlarını əsirgəməyəcəklər.

Sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə ürəkdən təbrik edir, hər birinizə səadət, firavanlıq və işlərinizdə uğurlar diləyirəm!

Bayramınız mübarək olsun!

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 25 dekabr 2018-ci il.

## BU SAYIMIZDA


## BÖYÜK ELMİ ŞURADA

QIŞ İMTAHAN SESSİYASINA HAZIRLIĞIN VƏZİYYƏTİ MÜZAKİRƏ OLUNUB 2



Peşəkar tibbi birlik və assosiasiyaların tibb elminin inkişafına cəlb edilməsi ilə bağlı konfrans keçirilib 3



ATU-da I Azərbaycan-Türkiyə ürək-damar cərrahiyyəsi” konfransı keçirildi 4



QOŞA BAYRAM SEVİNCİ 3

Fransa ölkəmizlə tibb təhsili üzrə əməkdaşlığı genişləndirmək niyyətindədir 5

ATU-da təcrübəni bitirən ərəb tələbələrinə sertifikatlar verildi 6


*Azərbaycan Tibb Universitetinin rektorluğu, Həmkarlar İttifaqı Komitəsi universitetin bütün əməkdaşlarını, o cümlədən professor-müəllim heyətini və tələbələrini Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edir!*

Təbib



BÖYÜK ELMİ ŞURADA

# QIŞ İMTAHAN SESSİYASINA HAZIRLIĞIN VƏZİYYƏTİ MÜZAKİRƏ OLUNUB

**Böyük Elmi Şuranın dekabrın 25- də keçirilən bu ilin sonuncu iclasını açan universitetin rektoru, professor Gəray Gəraybəyli gündəlikdə duran məsələləri diqqətə çatdırıb.**

Bundan sonra "Azərbaycan Tibb Universitetində 2018-2019-cu tədris ilinin payız semestrinin imtahan sessiyasına hazırlığın vəziyyəti və imtahanların mütəşəkkil keçirilməsində universitet kollektivinin vəzifələri" barədə universitetin tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyevin hesabat məruzəsi dinlənilib.

Hesabat məruzəsində ölkə başçısının 24 oktyabr 2013-cü il tarixli sərancamı ilə təsdiq edilmiş "Təhsilin inkişafı üzrə dövlət strategiyası"nın qüvvəyə minməsindən artıq 5 il ötdüyünü, bu müddətdə ölkəmizdə müasir təhsil quruculuğu istiqamətində uğurlu addımlar atıldığın və Azərbaycan təhsilinin dünya təhsil sisteminə inteqrasiyasının sürətləndiyini deyib: "Ümumi təhsildə yeni proqramların tətbiqi başa çatdırılmış, tədrisdə müasir texnologiya və innovasiyaların istifadəsi genişlənmiş, 2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" müvəffəqiyyətlə başa çatmış və bu günlərdə yeni "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətiliyinin artırılması üzrə Dövlət Proqramı qəbul edilmişdir".

Müəllim əməyinin stimullaşdırılması tədbirləri nəticəsində cəmiyyətimizdə müəllim nüfuzunun yüksəldiyini, istedadlı gənclərin müəllimlik peşəsinə marağının əhəmiyyətli dərəcədə artdığını söyləyən prorektor, qazanılan uğurları dövlətin təhsil sahəsinə diqqət və qayğısının təzahürü kimi dəyərləndirdib.

S.Əliyev çıxışında universitetin tədris hissəsi və fakültə dekanları tədris prosesinə nəzarət etməklə yanaşı tələbələrin dərsə davamiyyətini yoxlamaq məqsədi ilə tez-tez reydlər keçirmələrini məqsədəuyğun hesab edir: "Bu istiqamətdə 2018/2019-cu tədris ilində davamiyyət kriteriyalarını dəyişdirilərək qayıb limitinin 20%-ə salınması və mühazirələrdə iştirak etmə faizinin ayrıca olaraq 40%-ə endirilməsi çox vacib addımlardan biridir. Onun nəticəsi olaraq, yuxarı kurslarda davamiyyət göstəriciləri də müsbət tərəfə xeyli dəyişikliklərlə qeyd olunmuşdur".

Təhsilin Keyfiyyətinin Təminatı və İnnovasiya şöbəsinin nəzarəti altında yeni proqramlarda təlim nəticələrinin olmasına xüsusi diqqət yetirdiyini deyən prorektor bildirib ki, bir çox kafedralarda cari mənimsəmə test suallarından istifadə etməklə, nəzəri kafedralarda tələbələrin kollokvium cavabları vastəsi ilə qiymətləndirilir: "2018/2019-cu tədris ilində bu işin davamı olaraq universitetimizdə ilk dəfə I kurs tələbələri kompüter üsulu ilə aralıq qiymətləndirmə, yəni II kollokviumların İM vermişdir. Bu tələbələrin bilik səviyyəsinin semestr daxili qiymətləndirilməsinin daha mütəşəkkil və effektiv aparılmasını təmin edən bir addımdır ki, artıq dünyada və eləcə də ölkədaxili digər ali təhsil müəssisələrində geniş istifadə olunur. Tələbələr aralıq qiymətləndirmənin gedişində iştirak edən hörmətli rektorumuz, professor G.Gəraybəyliyə tələbələr bu qaydalarla test üsulu ilə aparılan ara sorğudan razı qaldıqlarını bildiriblər".

Tədris prosesinin keyfiyyətli aparılmasında maddi-texniki bazanın böyük rol oynadığını vurğulayan prorektor dedi ki, universitet rəhbərliyi bu sahədə kafedralara daim köməklik göstərir. Belə ki, onlar tədris avadınlıqları və mebellərlə təchiz olunmuş, əksər kafedralar kompüter, noutbuk, monitorlar verilmiş və internetə çıxış imkanları yaradılmışdır.

Sözünə davam edən S.Əliyev "Təhsilin keyfiyyətinin təminatı sistemi haqqında Bəyannamə"nin 4-cü bəndinin tələblərinə uyğun olaraq 2018/2019-cu tədris ilindən etibarən ATU-nun müəllim heyətinin peşə fəaliyyəti reytinq balları ilə qiymətləndirildiyini vurğulayıb. Reytinq balları sırasına müəllimlərin tədris, tədris-metodik və elmi-tədqiqat fəaliyyəti ilə yanaşı, praktik həkimlik təcrübəsi, nəşr etdirdiyi dərslik, dərs vəsaitləri, məqalələr, tezislər, universitetin ictimai həyatında fəallığı, onların tələbələr tərəfindən anket sorğusu vasitəsilə qiymətləndirilməsi və s. nəzərdə tutulmuşdur.



Universitet rəhbərliyi tərəfindən 2018/2019-cu tədris ilinin payız semestrinin imtahan sessiyasını mütəşəkkil keçirmək məqsədilə imzalanmış əmrə müvafiq olaraq universitetin tədris işləri üzrə prorektoru, tədris şöbəsi, ayrı-ayrı dekanlıqlar və kafedralar, imtahan test mərkəzi, tədris-metodik və innovasiya şöbəsi qarşısında icra edilməsi çox vacib olan vəzifələr qoyulduğunu söyləyən prorektor qeyd edib ki, nəzərdə tutulan əksər işlər artıq başa çatdırılmışdır: "Əmrdə kredit sistemi ilə təhsil alan tələbələrin imtahanlarının kompyüter vasitəsilə test üsulu ilə, yalnız hərbi tibb məktəbində təhsil alanlar üçün şifahi, mağistuaturada yazılı aparılması göstərilmişdir. Rektorluq şurasında aparılan müzakirələrin nəticəsi kimi kompyüter vasitəsilə test üsulu ilə aparılan imtahanların modernləşdirilməsi məqsədilə qərar qəbul edilmiş və keçən il I, II və III kurslardan başlayaraq sualların 50-dən 25-ə endirilməsi qərara alınmışdır. Hər sual 2 balla qiymətləndiriləcək. Bu il də 25 sualdan 15-i tələbələrin nəzərinə çatdırılan suallardır. 10 sual isə qapalı və çox cavablı sual olacaq. Onu da qeyd edim ki, bu suallar humanitar fənlərə yox, əsasən tibb yönümlü imtahan fənlərinə tətbiq olunacaqdır. Beləliklə, hətta sualları əzbərləyən tələbə belə bütün hallarda "əla" və çox yaxşı qiymət ala bilmək üçün ən azı dərsliyi oxumalıdır."

S.Əliyev çıxışında diplomdansonrakı rezidentura təhsilinin vəziyyətinə də toxunub: "Ötən illərdə olduğu kimi, cari tədris ilində də universitetdə rezidentura üzrə dərslər tədris planına uyğun aparılır. II-V kurslarda təhsillərini başa vuran 417 nəfər cari dövri attestasiyadan müvəffəqiyyətlə keçmiş və təhsillərini davam etdirirlər. 14 nəfər rezident isə I mərhələdə dövrü attestasiyadan keçməmişlər. Hesabat ilində 16 nəfər müxtəlif səbəbdən rezidenturadan xaric olunmuş, onlardan 1 nəfəri xarici rezidentdir. 31 nəfər analıq məzuniyyətinə getmişdir.

Bu il II-V kurslar üzrə 127 nəfər rezidenturanı bitirmişdir.

Ümumilikdə, bu il ilk dəfə bütün kurslar üzrə respublikada 300 nəfər rezidenturanı bitirərək həkim-mütəxəssis adına layiq görülmüşlər.

"2018/2019-cu tədris ilində Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən universitetə rezidentura üzrə I kursa 36 ixtisas üzrə 225 nəfər rezident, 11 nəfər isə xarici rezident qəbul olmuşdur. Hal-hazırda Azərbaycan Tibb Universiteti üzrə I-V kurslarda 36 ixtisas üzrə 661 rezident təhsil alır ki, onlardan 36 nəfəri xarici ölkə vətəndaşlarıdır".

Universitetdə təhsil alan xarici ölkə vətəndaşlarının təhsilinin təşkili məsələsi üzərində də dayanan prorektor xarici ölkə vətəndaşlarının tələbələrin önəmli hissəsini təşkil etdiyini söyləyib: "Hal-hazırda ATU-da 26 ölkədən 1590 nəfər xarici tələbə təhsil alır. Bunlardan 2 nəfər İordaniya vətəndaşı dövlət xətti ilə oxuyur. 15 ölkədən isə 175 dinləyici var. Bundan əlavə universitetdə 37 nəfər rezidenturada təhsil alırlar. Universitetimizdə xarici tələbələrin sayının artırılması məqsədilə dekanlığın əməkdaşları təhsil sahəsində dünyanın müxtəlif ölkələri və universitetləri ilə əlaqələri genişləndirirlər. Xarici ölkələrdən universitetimizdə təhsil almaq üçün müraciət edən tələbələrin sayı ildən ilə artır. Artıq 15 ildir ki, universitetimizdə təhsil ingilis dilində aparılır. Bu da xarici ölkə vətəndaşlarının universitetə cəlb olunmasında böyük əhəmiyyət kəsb edir."

S.Əliyev çıxışının sonunda professor-müəllim heyətinin payız semestrinin imtahan sessiyasının müvəffəqiyyətlə keçirilməsi işində əzmlə çalışacağına əminliyini bildirib.

Məruzə ətrafında çıxış edən kafedra müdirləri Əlihüseyn Hidayətov, Çingiz Rəhimov, Ədalət Həsənov və Eldar Qarayev hesabatı qənaətbəxş qiymətləndirərək payız semestrinin imtahan sessiyasına hazırlığın vəziyyəti ilə bağlı fikirlərini və təkliflərini şura üzvləri ilə bölüşüblər. Natiqlər təməl kafedralarında gənc kadrlara yaranan tələbatdan və bu problemin həlli yollarından da söz açıblar. Onlar gənc peşəkarların sayının artırılması üçün düzgün seçim edilməsinin vaxtının çatdığını dilə gətiriblər.




G.Gəraybəyli müzakirələrə yekun vuraraq Sabir müəllimin hesabatını yüksək qiymətləndirib və çıxışlarda səslənən fikirlərə münasibətini açıqlayıb: "Hər il istər sessiya ərəfəsində, istərsə də sessiyanın sonunda imtahanların təşkili və nəticələri barədə müzakirələr aparırıq. Əminliyimizi bildiririk ki, növbəti sessiya da uğurla keçəcək. Ancaq etiraf edək ki, son nəticə olaraq universiteti bitirən tələbələrin həm təcrübi, həm də nəzəri bilikləri istədiyimiz səviyyədə deyil. Biz bu barədə düşünməliyik. Haradasa ya təhsil sahəsində, ya tədris üsulunda, ya qiymətləndirmədə nəyisə dəyişməli, tələbələrin bilik səviyyəsini müasir standartlara çatdırmağa çalışmalıyıq. Diqqət etsək görərik ki, ölkə rəhbərliyi təhsilə və səhiyyəyə xüsusi diqqət ayırır. Elə il olmaz ki, təhsilə aid hansısa qanun və proqramlar qəbul olunmasın. Bu onu göstərir ki, təhsil sisteminin müasirləşməsi və təkmilləşməsi ölkə rəhbərinin diqqət mərkəzindədir. Sabir müəllimin də qeyd etdiyi kimi "2019-2023-cü illərdə Azərbaycan Respublikasında Ali Təhsil Sisteminin Beynəlxalq Rəqabətliliyin Artması üzrə Dövlət Proqramı" qəbul edilib və cənab İlham Əliyev tərəfindən imzalanıb.

Sözünə davam edən rektor bu proqramda göstərilən məsələlərin bütün ali təhsil müəssisələrinə aid olsa da prioritet istiqamətlərdən biri də tibb təhsili olduğunu söylədi: "Biz işçi qrupu formalaşdırmışıq. Bu işçi qrupu artıq Türkiyəyə səfər edib, ikili diplom məsələsi ilə bağlı lazımi işlər görürlər. İstər müəllimlərin qurultayında, istərsə də keçən həftə Dünya Bankı tərəfindən insan resusları ilə bağlı təşkil edilən forumda ölkədə səhiyyə və təhsilin təkmilləşdirilməsi məsələsinə xüsusi diqqət yetirilib. Hesab edirəm ki, biz də qabaqcıl universitet olaraq öz gündəlik təhsilimizdə bu barədə düşünməliyik."

Bal reytinq attestasiyasının bu ildən etibarən fəaliyyətə başladığını bildirən G.Gəraybəyli qeyd edib ki, bal reytinq attestasiyası işləyənlərin klinik fəaliyyətinin qiymətləndirməsi zəruridir: "Bu sistem həm də yaşsenzi məhdudiyyətini aradan qaldırdı. Şübhəsiz ki, bu sistem də ildən ilə təkmilləşdiriləcək və indiki səviyyəsində qalmayacaq."

Aralıq qiymətləndirmədə imtahanın tətbiqinin müsbət nəticə verdiyini söyləyən rektor burada müəyyən texniki problemlərin olmasına baxmayaraq bu məsələnin də öz həllini tapdığını deyib.

Bir qrup əməkdaşımızın bu günlərdə Hacıtəpə Universitetində olduğunu da diqqətə çatdıran rektor deyib ki, məqsəd onların qabaqcıl təcrübələrini öyrənib işimizə tətbiq etməkdir: "Dövlətimiz hələ illər öncə gəncləri xaricə göndərib magistratura və bakalaviatura səviyyəsində oxutdururdu. Məqsəd isə ondan ibarət idi ki, tələbələr təhsil aldığı ölkədəki biliyi və təcrübəni ölkəmizdə bölüşüb, paylaşacaq və istifadə edəcəklər. Bu da bizə imkan verir ki, xaricdə təhsil almış tələbələri kafedramıza cəlb edək və kafedraların potensialını artıraq. Bu yaxınlarda doktoranturatya qəbul haqqında elan dərc olunub. Görürəm ki, professorlar əvvəlcədən kimlərinsə namizədliyini nəzərə alaraq onların sənədlərini doktoranturaya təqdim edirlər. Xahiş edirəm, namizədləri seçəndə onların müasir bilik səviyyəsi və xarici dili bilib-bilməməyi də nəzərə alınsın. Çünki xarici dili bilməyənlər doktoranturaya qəbul olmayacaqlar. Bu gün xarici ədəbiyyata çıxışı olmayan insan alimlik adı daşıya bilməz."

Kafedraların tədris proqramlarının müasir səviyyəyə uyğun tərtib edilməsini də önə çəkən rektor deyib ki, bu proqramların tərtibində xaricdə təhsil almış mütəxəssislərin potensialından da istifadə etmək lazımdır: "Rezidenturaya qəbulun müasirləşməsi də günümüzün aktual məsələlərindəndir. Rezidenturaya qəbul qaydalarında bizim də öz təklifimiz var. Hesab edirəm ki, hazırladığımız bu təkliflər növbəti ildə öz əksini tapacaq.

Kitab probleminə də diqqət çəkən rektor bildirdi ki, dünyada gedən qloballaşma prosesi təhsildən də yan keçməmişdir: "Çox vaxt Türkiyədə, Almaniyada standartlaşmış dərsliklərdən istifadə edirlər. Tapşırıq vermişik ki, biz də bu dərslikləri gətirərək proqramlarımıza uyğunlaşdıraq. Kafedra müdirlərinin diqqətinə çatdırmaq istərdim ki, bu prosesdə aktiv iştirak etsinlər. Çünki hər bir fakültə üçün yazılan dərslik və dərs vəsaitləri müasir tələblərə cavab verməlidir. Bəlkə, hansısa tərcüməçiyə ödənilən vəsaiti kafedra əməkdaşlarına verək. Onlar daha səlis tərcümə etsinlər."

Qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə kollektivə işlərində müvəffəqiyyətlər və ruzi- bərəkət arzulayan rektor bu münasibətlə şura üzvlərini təbrik edib. O, eyni zamanda "Nizam-intizam Komissiyası"na da tapşırıqlarını verib.

Sonda dərslik, dərs vəsaitləri və metodik vəsaitlərin nəşr olunmasını təsdiqləyən Böyük Elmi Şura müsabiqə məsələlərini həll etməklə öz işini yekunlaşdırıb.

Mənsur ƏLƏKBƏRLİ

**Dekabrın 19-da Bakıda Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə "Peşəkar tibbi birlik və assosiasiyaların tibb elmi və ölkə səhiyyəsinin inkişafına cəlb edilməsi" mövzusunda konfrans keçirilib.**

# Peşəkar tibbi birlik və assosiasiyaların tibb elminin inkişafına cəlb edilməsi ilə bağlı konfrans keçirilib





Konfransın məqsədi peşəkar tibbi birliklərin və assosiasiyaların səhiyyə sisteminin təkmilləşdirilməsi, səhiyyə sahəsinin formalaşması, həyata keçirilməsi və elmi-tibbi yeniliklərin tətbiqinin genişləndirilməsində rolunun artırılmasına nail olmaqdır.

Konfransın açılışında səhiyyə nazirinin müavini Rəhim Əliyev çıxış edərək Prezident İlham Əliyevin rəhbərliyi ilə son illər ölkəmizdə səhiyyə sahəsində həyata keçirilən islahatlar, yeni tibb ocaqlarının istifadəyə verilməsi və onların müasir tibbi avadanlıqla təchizatı sahəsində görülən işlər barədə danışıb. O, həyata keçirilən həmin tədbirlərdə tibbi birlik və assosiasiyaların iştirakını gücləndirməyin vacibliyini qeyd edib. Bildirib ki, ölkəmizdə davamlı tibbi təhsilin həyata keçirildiyi 2017-ci ildən bəri tibbi birlik və assosiasiyaların iştirakı ilə 150-dən çox tədbir keçirilib və konfransın məqsədi səhiyyə sistemində aparılan islahatlarda onların rolunu fəallaşdırmaqdır.

Sonra Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli və Əziz Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru, professor Nazim Qasımov çıxış ediblər.

Səhiyyə Nazirliyinin tibbi yardımın təşkili şöbəsinin müdir müavini Nabil Seyidov tibbi birlik və assosiasiyaların son illərdəki fəaliyyəti, bu sahədə sıx əməkdaşlıq, təcrübə mübadiləsi, əməkdaşlığın genişləndirilməsi və s. barədə məlumat verib.

Milli Məclisin səhiyyə komitəsinin üzvü İlham Məmmədov "Peşəkar tibbi birlik və assosiasiyaların səhiyyə sahəsində qanunvericilik təşəbbüsləri" mövzusunda məruzə edib. O, tibbi birlik və assosiasiyaları hazırlanmaqda olan "Psixoloji yardım haqqında", "Transplantologiya haqqında", Reproduktiv sağlamlıq haqqında", eləcə də hazırda müzakirə edilən "Ailə həkimi haqqında", "Pasiyentin hüquqları haqqında" qanun layihələrinin müzakirəsində iştirak etməyə, təklif və rəylər verməyə çağırıb. Deputat, həmçinin təxminən on il əvvəl qəbul edilmiş "Tibbi sığorta haqqında" Qanuna da yeni yanaşma lazım gəldiyini söyləyib və bu məsələlərin hər birində ictimai təşkilatların da mövqeyinə ciddi ehtiyac olduğunu vurğulayıb.

Konfransın panel iclaslarında tibbi birliklərin və assosiasiyaların rəhbərləri beynəlxalq əməkdaşlıq, ilkin səhiyyə və stasionar xidmətdə tibbi təlimatların rolu, icbari tibbi sığortanın tətbiqi ilə əlaqədar müzakirələr apardılar.

Müzakirələr zamanı qabaqcıl təcrübələrin yayılması məqsədilə peşəkar tibbi birlik və assosiasiyaların fəaliyyətinin gücləndirilməsinə dair təkliflər səsləndirilib və perspektivlər müəyyən edilib.

Konfransın yekununda ölkəmizdə peşəkar tibbi birlik və assosiasiyalar federasiyasının yaradılması haqqında qərar qəbul olunub.

**Dekabrın 28-də Azərbaycan Tibb Universitetində qoşa bayram sevinci yaşandı. Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni İl bayramına həsr olunmuş ədəbi-bədii musiqili gecə "Koroğlu uvertürası"nın sədaları altında bütövlükdə ölkəmizin, həmçinin universitetimizin tarixi nailiyyətlərini özündə əks etdirən video-çarxın nümayişi ilə başlandı.**

# QOŞA BAYRAM SEVİNCİ









Bundan sonra bütün iştirakçıları salamlayan bayram tədbirinin aparıcıları - İctimai səhiyyə fakültəsinin III kurs tələbəsi Fidan Həsənli və Stomatologiya fakültəsinin II kurs tələbəsi Əli Əliyev təbrik nitqi üçün universitetin rektoru, professor Gəray Gəraybəylini tribunaya dəvət etdilər.

Təbrik nitqində professor-müəllim heyətinə, tələbələrə və qonaqlara, onların ailələrinə, doğmalarına cansağlığı, mehribançılıq, səadət, ən xoş günlər arzulayan rektor 2018-ci ilin ölkəmiz üçün, xalqımız üçün, eləcə də universitetimiz üçün çox düşərli və uğurlu bir il olduğunu xatırlatdı:"Bu il Şərqdə ilk demokratik respublika olan Azərbaycan Cümhuriyyətinin 100 illiyi qeyd olundu. Ölkədə, o cümlədən universitetimizdə bu yubileyə həsr olunmuş müxtəlif tədbirlər təşkil edildi. 2018-ci ildə keçirilən prezident seçkilərində xalqımız yenə də tərəqqiyə, inkişafa, ölkəmizin güclənməsinə səs verərək İlham Əliyevi yenidən prezident seçdi. Bir çox iqtisadi, mədəni, sosial yönümlü layihələrə start verildi. 2018-ci il universitetimiz üçün də uğurlu oldu. İstər tədris və tələbələrin biliyinin qiymətləndirmesi sistemində, istərsə də texnoloji səviyyənin yüksəldilməsi, idarəçilik istiqamətində başlanan islahatlar uğurla davam etdi.

Mən əminəm ki, hər birimiz gələcək illərdə də bu işləri davam etdirərək universitetimizi regionun ən qabaqcıl universiteti səviyyəsinə yüksəltməyə nail olacağıq. Bir daha qarşıdan gələn bayramlarınızı təbrik edir, ən xoş arzularımı sizlərə çatdırıram!"

Universitet rəhbərinin təbrikindən sonra gecənin ilk musiqi töhfəsi ATU-nun "Şəfa" xalq çalğı alətləri ansamblınından gəldi - "Yeni il kompazisiyası".

Mərhum xalq artisti Əminə Dilbazinin yadigarı, hal-hazırda bədii rəhbəri Nisəxanım Rəhimova olan "Çinar" rəqs ansamblı da "Məzəli rəqs"lə tədbirə xüsusi rəng qatdı.

Hərbi Tibb Fakültəsinin IV kurs tələbəsi Nadir Nəbiyev və II kurs tələbəsi Nicat Nəsibli, İctimai səhiyyə fakültəsinin II kurs tələbəsi Emilya Hacıhəsənova, MPF-nin II kurs tələbəsi Günel Tamarovanın ifaları da tamaşaçı alqışları ilə qarşılandı.

Musiqi fasilələrində 2018-ci ildə ayrı-ayrı nominasiyalar üzrə keçirilən sorğuların nəticələri də açıqlandı. Məlum oldu ki, 2018-ci ilin payız semestrində III, IV, V, VI kursların qrup nümayəndələri, yəni 128 tələbə arasında "Ən yaxşı müəllim" nominasiyası üzrə keçirilən sorğuya əsasən, ötən ilin nəticəsi təkrarlanıb. Farmakologiya kafedrasının dosenti Kamandar Yaqubov yenə də qalibdir. Onun pedaqoji fəaliyyəti yüksək qiymətləndirilərək fəxri fərman və bir aylıq əmək haqqı məbləğində pulla mükafatlandırılıb.

"Ən yaxşı elmi fəaliyyət" nominasiyası üzrə mükafat isə terapevtik və pediatrik propedevtika kafedrasının assistenti Əlizamin Sadıqova verilib.

İnformasiya sistemlərinin təşkili və idarəetmə mərkəzinin əməkdaşları Rəmzi Əliyev, Həsən Həsənzadə, Əfsanə Kərimova da mükafatlandırılanlar sırasında olublar.

Gənclər Təşkilatı və Gənclərin İntellektual İnkişaf Mərkəzi İctimai Birliyi 32 ali məktəb arasında keçirdikləri intellektual oyun yarışmasında ATU-nun komandası I yeri tutub. Həmişə yarışlarda ATU-nu layiqincə təmsil edən "Dominators" intellektual komandasının kapitanı, Stomatologiya fakültəsinin III kurs tələbəsi Mircavad Mirbabayevə təşəkkür bildirilib və komanda mükafata layiq görülüb.

"İlin ən aktiv tələbəsi" nominasiyasının qalibi II MPF-nin VI kurs tələbəsi Məhərrəm Alimli, "İlin ən yaxşı təsərrüfat işçisi" nominasiyasının qalibi isə Tədris Cərrahiyyə Klinikasının əməkdaşı Əlizamin Məmmədov olub.

Ötən əsrin 70-80-ci illərində ATU-da yaradılan musiqi qruplarının fəaliyyətini əks etdirən video-çarxın nümayişi yaşlı nəsli xəyalən keçmişə qaytardı. Gənc nəslin gözləri önündə isə o dövrün mənzərəsi canlandı. "Eskulap" (1969-1970-ci illər), "Eksperiment" (1970-1975-ci illər), "Alov" (1976-1984-cü illər) musiqi qrupları barədə ətraflı məlumat verildi.

"Alov" qrupunun üzvləri olmuş Xalid Abdullayev, Rauf Rəhimov və Ələkbər Nəzərovun səhnəyə qalxaraq maraqlı performans göstərmələri tamaşaçı auditoriyasında nostalji hisslərlə yanaşı, bir coşqu da yaratdı.

Bir anlığa keçmiş xatirələri yada salan ifaların ardınca musiqi estafeti yenidən gənclərə verildi. MPF-nin III kurs tələbəsi Əziz Əhmədlinin ifasında "Şur-Şahnaz təsnifi", "Şəfa" ansamblının fəxri üzvü Nərmin Camalın oxuduğu İngilis mahnısı "Dean Martin Sway" zövqləri oxşadı.

Bülbül adına musiqi məktəbinin şagirdlərinin ifasında səslənən "Qarabağ şikəstəsi" bir haraya, qələbə çağırışına çevrildi.

Səhnəyə Azərbaycan Bayrağının gətirilməsi, İctimai-səhiyyə fakültələrinin IV kurs tələbəsi Taleh Qasımov və III kurs tələbəsi Gülarə Məmmədlinın qiraətlərində Bayraqla bağlı şeirlərin səsləndirməsi, I MPF-nin II kurs tələbəsi Salatın Quliyevanın atası Aydın Quliyevin müşayiəti ilə "Azərbaycan" mahnısını ifa etməsi bayram əhval-ruhiyyəsini daha da artırdı.

Artıq arxada qoyduğumuz 2018-ci il və böyük ümidlərlə gözlədiyimiz 2019-cu ilin qovşağında düzənlənən bayram tədbiri Azərbaycan Tibb Universitetinin Himni ilə başa çatdı.

Xoş arzular sorağı ilə sizin də qoşa bayramınız mübarək olsun, əziz oxucular!

**Arif MƏMMƏDLİ**

# Rəqəmsal cərrahiyyə erasının başlanğıcı

**Tədris Cərrahiyyə Klinikasında professor Çingiz Rəhimovun rəhbərliyi ilə tətbiq olunan yeni texnologiya ölkəmizdə yüksək səviyyədə maraq doğurub.**

Bədən toxumalarının ciddi dağılması, deformasiyası və ya itirilməsi zamanı adətən bərpaedici rekonstruksiya əməliyyatları aparılır. Son zamanlar cəmiyyətimizdə sayı yüksələn məişət və istehsalat travmaları, anadangəlmə anomaliyalar, eləcə də şiş xəstəliklərinin müalicəsində radikal cərrahi metodlara üstünlük verilməsi bu sahəyə tələbatı xeyli artırıb.

Bərpaedici rekonstruksiya əməliyyatlarının məqsədi orqan və ya onun hissəsinin normal fizioloji funksiyasını yerinə yetirə biləcək səviyyəyə çatdırmaqdır. Görünən nahiyələrdə isə eyni zamanda bu strukturların estetik göstəricilərinin bərpası ön plana çıxır.

Xüsusilə, üzdə aparılan cərrahi əməliyyatlar yüksək funksional və estetik tələblərə cavab verməlidir. Üzün mürəkkəb anatomik quruluşunu nəzərə alsaq, cərrahi müdaxilənin müvəffəqiyyəti mümkün qədər sağlam toxumaları qorumaq şərtilə əməliyyatın yüksək dəqiqliklə aparılmasından asılıdır.



Bunun üçün cərrahın bilik və bacarığı ilə yanaşı, müvafiq texniki dəstəyə ehtiyacı yaranır. Cərrah əməliyyat sahəsinin görüntüsünü kifayət qədər təmin etmək üçün işıqlandırma vasitələrindən, böyüdücü eynəklərdən və mikroskoplardan istifadə etməklə insan gözünün görməsinin gücləndirməsini təmin edir. Toxumaların altında qalan digər vacib anatomik strukturlar görünmədiyindən və üzdə simmetriyanı qorumaq üçün sağlam tərəflə müqayisə imkanı məhdud olduğundan, əməliyyat zamanı cərrahın fəsadlara səbəb olan qeyri-dəqiq hərəkəti və ya qeyri-dəqiq qərarın verilməsi mümkünlüyü istisna olunmur.

Son zamanlar yüksək dəqiqlik tələb edilən əməliyyatlarda xüsusi naviqasiya qurğularından istifadə edilir. Amma bu qurğuların istifadəsi zamanı rast gələnən xətalar, əməliyyat otağında yerləşdirilməsi üçün xüsusi şəraitin yaradılması tələbi, avadanlıqların bahalı və idarəsinin mürəkkəb olması onların geniş istifadəsini məhdudlaşdırır.

Azərbaycan Tibb Universitetində professor Çingiz Rəhimovun rəhbərliyi altında alim və mütəxəssislər qrupunun tədqiqat axtarışları bu sahədə davam edərək, rəqəmsal kompüter texnologiyalarının son nailiyyətlərinə "artırılmış reallıq eynəkləri"nə müraciət edir.

Tədqiqat işlərinin aparılması üçün İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu tərəfindən bu layihəyə qrant ayrılıb.

Layihə çərçivəsində hazırlanan kompüter proqramı "artırılmış reallıq eynəkləri"ndən istifadə edən cərraha real görüntü ilə yanaşı, gözlə görünməyən anatomik strukturları aşkarlamağa imkan verir. Eyni zamanda, eynəklərə dəqiq ölçülərlə hesablanan əməliyyatın virtual planlanması yüklənir. Bu da əməliyyatın icrasını daha dəqiq yerinə yetirməyə imkan verir, toxumaların zədələnməsini cərrahın əməliyyat sahəsində hərəkətlərini minimuma endirir, eyni zamanda əməliyyat vaxtına xeyli qənaət edir. Bunlar cərrahi fəsadlaşmaların sayını azaldır, müalicənin qiymətini aşağı salır və ən əsası - yüksək funksional və estetik nəticə əldə olunmasına imkan yaradır.

Layihə Bakı Ekspo Mərkəzində 4-7 dekabr 2018 il tarixində keçirilən «Bakutel 2018" Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar sərgisində də nümayiş etdirilib. Sərgi ziyarətçilərinin çox böyük marağını cəlb edən stenddə "artırılmış reallıq eynəklər"in istifadəsi ilə cərrahi əməliyyata dair süjet nümayiş etdirilib. Sərgini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva da ziyarət ediblər. Birinci vitse-prezident Mehriban xanım Əliyeva layihə ilə birbaşa maraqlanıb, belə tədqiqatların ölkənin imici üçün əhəmiyyətli olduğunu vurğulayıb və bu layihənin inkişafı istiqamətində öz tövsiyələrini verib.

Artıq professor Çingiz Rəhimovun rəhbərliyi ilə bu yeni texnologiyanın Azərbaycan Tibb Universitetinin Cərrahiyyə Klinikasında kliniki tətbiqi həyata keçirilir. Bu metodika ilə cərrahiyyənin tibbin digər sahələrində də tətbiqi istiqamətində iş aparılır.

# ATU-da I Azərbaycan-Türkiyə ürək-damar cərrahiyyəsi" konfransı

**Dekabrın 22-də Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında "I Azərbaycan-Türkiyə ürək-damar cərrahiyyəsi" konfransı keçirilib.**



Konfransda çıxış edən ATU-nun elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov dünyada ürək-damar xəstəliklərinin ölüm hallarının əsas səbəbi olduğunu deyib: "Xəstəlik vaxtında aşkarlanar və zəruri tədbirlər görülərsə, müsbət nəticələr əldə etməklə yanaşı, ölüm hallarının qarşısı alına bilər. Konfransın əsas məqsədi ürək-damar cərrahiyyəsində tətbiq olunan müasir metodların müzakirəsi və təcrübə mübadiləsidir".

Açılış nitqindən sonra ATU-nun professoru, Tədris Cərrahiyyə Klinikasının ürək-damar cərrahiyyəsi şöbəsinin rəhbəri Məhəmməd Kərimov və professor Kamran Musayevin sədrliyi altında sessiyalar işinə başlayıb.

Konfransda Dəniz Göksedef "Süni ürək cihazları ürək transplantasiyasına alternativ ola bilərmi?", ATU-nun Tədris Cərrahiyyə Klinikasının invaziv kardiologiya şöbəsinin müdiri Qalib İmanov və Dəniz Göksedef kardiocərrahın baxışı "Çox damar koronar xəstələrində cərrahiyyə və ya stentləmə?", İsmail Yürekli "Periferik arteriya xəstəliklərinin müalicəsində eyni vaxtlı hibrid müdaxilələr", Bahadır İnan "Aritmiyaların müalicəsində cərrahiyyənin yeri varmı?", Məhəmməd Kərimov "Varikoz xəstəliyinin müalicəsinə müasir baxış", Kamran Musayev "3D texnalogiyasının ürək cərrahiyyəsində istifadəsi: Bakı təcrübəsi", Anar Əmrah "TAVİ: Bakı təcrübəsi", Rəşad Mahmudov "Koronar və karotis cərrahiyyəsinə müasir baxış", Mirəli Məcidov "Koronar cərrahiyyədə full arterial revaskulyarizasiya", Yasmin Rüstəmova "Atrial fibrilyasiyanın müalicəsində kardial görüntüləmə metodlarının rolu", İsmail Göyüşov "Atrial fibrilyasiyanın invaziv müalicəsi" mövzusunda mühazirələrlə çıxış ediblər.

Tədbir zamanı professor M.Kərimov jurnalistlərə verdiyi açıqlamada konfransın əhəmiyyəti barədə aşağıdakıları qeyd edib: "Konfrans müasir təbabətin çox aktual problemlərindən biri olan ürək-damar cərrahi xəstəliklərinin müalicəsi prinsiplərinin öyrənilməsinə həsr edilmişdir. Bütün dünyada olduğu kimi, Azərbaycanda da ürək-damar xəstəlikləri istər yayılma göstəricilərinə, istərsə də ümumi ölüm göstəricilərinə görə, 1-ci yerdə durduğundan bu problem həmişə həkimləri, eləcə də cəmiyyəti çox maraqlandırır və narahat edir. Düşünürəm ki, toplaşdığımız konfrans



Azərbaycan cərrahiyyəsinə və bu sahədə çalışan həkimlərə öz müsbət töhvəsini verəcəkdir. Konfransın digər önəmli cəhəti onun beynəlxalq xarakter daşımasıdır. Konfransa Türkiyədən çox dəyərli qonaqlar təşrif buyurmuşlar. Onlar da ürək-damar cərrahiyyəsi sahəsində çox böyük təcrübəyə malikdirlər. Bizim birlikdə apardığımız fikir mübadiləsi son nəticədə özünün müsbət təsirini göstərəcəkdir."

I ürək–damar cərrahiyyəsinə həsr edilmiş konfransda kardiovaskulyar xəstəliklərin diaqnostikası, müalicəsi və dünyadakı müasir yanaşma taktikaları müzakirə edilib. Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən iştirakçılara 4 Davamedici Tibbi Təhsil Balı verilib.

**ATU-nun mətbuat xidməti**

# Pediatr Cəmiyyətinin üzvləri növbəti elmi-praktik konfrans keçirib

**Azərbaycan Səhiyyə Nazirliyinin dəstəyi ilə Azərbaycan Tibb Universitetinin II uşaq xəstəlikləri kafedrasının əməkdaşları, Pediatr Cəmiyyətinin üzvləri Şirvan, Lənkəran, Masallı şəhər və rayon pediatrları üçün növbəti regional akkreditasiyalı konfranslar keçiriblər. Tədbirin əsas məqsədi uşaqların sağlamlığının qorunması, müasir dövrdə elmi sübutlu təbabət əsasında davamlı tibbi təhsil prinsiplərını həyata keçirmək və bu sahədə çalışan həkimlərin peşə biliklərinin artırılması idi.**



Məlum olduğu kimi, son illərdə tibb işçiləri ilə davamlı tibbi təhsili həyata keçirmək diqqət mərkəzindədir. Bu haqda Azərbaycan Səhiyyə nazirinin əmri də mövcuddur. Burada əsas məqsəd Bakı şəhərində və respublikamızın bölgələrində uşaqlarımızın sağlamlığı keşiyində duran pediatrlara uşaq xəstəliklərinin müasir profilaktikasında, müalicəsində olan innovativ yenilikləri, təcrübi vərdişləri çatdırmaqdan ibarətdir.

Azərbaycan Səhiyyə Nazirliyinin və Azərbaycan Tibb Universitetinin rəhbərliyinin dəstəyi ilə Azərbaycan Pediatrları Assosiasiyasının nümayəndələri – II uşaq xəstəlikləri kafedrasının əməkdaşları akademik A.Namazova, dosentlər T.Tağızadə, F.Məmmədova, L.Hidayətova dekabr ayının 12, 13-də Şirvan, Lənkəran, Masallı şəhərlərində və onların ətraf bölgələrində çalışan uşaq həkimləri üçün elmi-praktik konfranslar keçiriblər. Həmin konfranslarda alimlərimiz "Birləşdirici toxumanın displaziyası və revmatik xəstəliklər"ə, "Mədə-bağırsaq xəstəlikləri zamanı mikrobiotikanın rolu"na dair müasir baxışlar haqqında məruzələr söyləyiblər və streptotest sınağının qoyulmasına master klaslıq tətbiq ediblər. Bu tədbirlərdə ərazi uşaq poliklinika və xəstəxanalarının pediatrları fəallıq göstərərək, alimlərimizə onları maraqlandıran suallar veriblər. Təcrübə həkimləri bu cür konfransların təşkilindən məmnun olduqlarını bildiriblər.

Yeri gəlmişkən, konfrans keçirilən bölgələrdə çalışan baş həkimlərin, xüsusilə Masallı rayonunun baş həkimi C.Nəzərovanın təşkilati cəhətdən böyük fəaliyyətini xüsusi qeyd etmək lazımdır.

**T.Tağı-zadə,**
*II uşaq xəstəlikləri kafedrasının əməkdaşı, t.e.n., dosent*

# Fransa ölkəmizlə tibb təhsili üzrə əməkdaşlığı genişləndirmək niyyətindədir

**Bu məqsədlə dekabrın 19-da Fransanın Azərbaycandakı Səfirliyinin nümayəndələri Azərbaycan Tibb Universitetinin tələbələri ilə görüşüblər.**

ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Nadir Zeynalov çıxış edərək görüşün məqsədi barədə iştirakçılara məlumat verib. Bildirib ki, ATU-nun beynəlxalq əlaqələrinin coğrafiyası 50-dən artıq ölkəni əhatə edir.

"Biz həmin ölkələrin universitetləri, xəstəxanaları, elmi mərkəzləri ilə əməkdaşlıq edirik. Müəllim və tələbə mübadiləsi, elmi layihələr, müxtəlif istiqamətdə təcrübə paylaşımı ilə universitetimizin beynəlxalq əlaqələrini daha da genişləndirir və inkişaf etdiririk." - deyən prorektor belə ölkələrdən birinin də Fransa olduğunu vurğulayıb.



O, ATU-nun Fransada fəaliyyət göstərən universitetlərlə əlaqələrindən də söhbət açaraq qeyd edib ki, Fransanın ölkəmizdəki səfirliyi və universitetimizin rəhbərliyi bu əlaqələri daha da genişləndirmək istəyir: "Məhz onların təşəbbüsü ilə belə bir tədbir düzənlənib. Bu səbəbdən səfirliyin əməkdaşlarını universitetimizə dəvət etmişik. Fransanın Azərbaycandakı səfrinin 1-ci müşaviri cənab Dominuque Gentils və digər əməkdaşlar Fransa təhsili və orada fəaliyyət göstərən ali məktəblər barədə sizə ətraflı məlumat verəcək."

Fransanın Azərbaycandakı səfirinin 1-ci müşaviri D.Gentils çıxışında bu tədbiri təşkil etdiyi üçün universitetin rektoru, professor Gəray Gəraybəyliyə və universitetin beynəlxalq əlaqələr üzrə prorektoru Nadir Zeynalova təşəkkürünü bildirib: "Mənim üçün burada olmaq və Fransa təhsili ilə bağlı sizlərə məlumat vermək böyük şərəfdir. Məqsədimiz digər sahələrdə olduğu kimi, təhsil sahəsində də əməkdaşlığı genişləndirməkdir. Artıq iki dövlət arasında bir sıra mühüm layihələrə imza atmışıq. Yəqin bilirsiniz ki, "Azərbaycan - Fransa İnstitutu" ölkələrimiz arasında bəzi layihələrin həyata keçirilməsində müstəsna rola malikdir. Amma bu vaxtadək tibb sahəsində böyük layihəmiz olmayıb. Bildiyiniz kimi, Fransa bu sahədə inkişaf etmiş ölkələrdən biridir. Artıq Azərbaycanla Fransa arasında tibb sahəsində əməkdaşlığa imza atmağın vaxtıdır. Hesab edirəm ki, zalda əyləşən hər bir tələbə Fransada təhsilin keyfiyyətinin yüksək olduğunu yaxşı anlayır. Ona görə də təhsillə bağlı ən yeni məlumatları diqqətinizə çatdırmaq üçün hər zaman yanınızdayıq və istəyirik ki, Fransa ilə Azərbaycan arasında bu sahədə uzun müddətli əlaqələr yaradaq. Çünki tibbə dair yenilikləri dünyadan təcrid olunmuş formada tətbiq etmək qeyri-mümkündür. Bu səbəbdən əsas məqsədimiz azərbaycanlı həkimlərin Fransada təhsil alması və təkmilləşməsidir."

Səfirliyin universitetlərlə əməkdaşlıq üzrə ataşesi Maurun Raab ölkəmizdə bir sıra layihələrin həyata keçirilməsinə rəhbərlik, o cümlədən "Campus France" ofisinin idarə olunmasında yaxından iştirak etdiyini deyib. O, həmçinin Fransada təhsil almaq istəyən tələbələrə müraciət etdikləri təqdirdə yaxından köməklik göstəriləcəyini bildirib.

Sonra səfirliyin əməkdaşı Qəmər Əfşani Fransa təhsili ilə bağlı geniş məlumat verərək Fransada təhsil alacaq tələbələrin hansı mərhələlərdən keçməli olacaqlarını və hansı vacib qaydaları bilmələrini izah edib. Digər əməkdaş Leyla Əliyeva isə səfirliyin nəzdində fəaliyyət göstərən fransız dili kursları ilə bağlı tələbələri məlumatlandırıb.



Sonra ATU-nun məzunu, Fransada tibb təhsili almış Araz Bayramov çıxış edib: "Baxıram zala, qürur hissi keçirirəm. Görürəm ki, Fransada təhsil almaq istəyən tələbələrin sayı çoxdur. Mən də 16 il öncə Fransa səfirliyinin ATU-da təhsillə bağlı keçirdiyi tədbirdə qərara gəldim ki, bu ölkədə təhsil alım. Düzdür, o zaman tələbə yoldaşlarımdan mənə inanmayanlar da oldu. Amma məqsədimə çatmaq üçün üzərimdə çalışdım, xeyli mütaliə etdim. Ona görə siz də özünüzə inanın və Fransada təhsil almaq üçün üzərinizdə çalışın. Hazırda Fransanın Azərbaycandakı səfirliyində fransız dili kursları fəaliyyət göstərir. İlk öncə dili mükəmməl öyrənin, sonra Fransada necə təhsil almağın yollarını arayın. Fransada tibb təhsili tamamilə fərqli istiqamətdədir. Burada hər cür incəlikəri öyrənmək üçün elmi araşdırma və mükəmməl təcrübə keçmək imkanları var. Bu səbəbdən qızımın da Fransada tibb təhsili almasını istəyirəm. O, səfirliyin nəzdində fəaliyyət göstərən fransız dili kurslarına gedir. Hər halda Fransada təhsil alsanız və təcrübə keçsəniz qazanacaqlarınız çox şey olacaq."

Tədbirin sonunda səfirliyin əməkdaşları iştirakçıları maraqlandıran suallara ətraflı cavab veriblər.

**Qabil ABDULLAYEV**

# Hamiləliklə bağlı problemlər müzakirə olundu

**Dekabrın 20-də Tədris Cərrahiyyə Klinikasında "Təkrarlanan düşüklər və tromboemboliya problemləri" nə həsr edilmiş konfrans keçirilib.**

Klinikanın direktoru, professor Surxay Hadıyev bu tip konfransların ictimaiyyətin maarifləndirilməsi baxımından çox yararlı olduğunu bildirdi: «Klinikamızda ənənəni alan belə tədbirlərdə tibb sahəsinin mütəxəssisləri, peşəkar həkimlərin fikir və bilik mübadiləsi üçün şərait yaranır. Bütün dünyada ana-uşaq problemləri daim dövlətin, səhiyyənin diqqət mərkəzindədir. İnanıram ki, bu gün müzakirə edilən məsələlər ana-uşaq sağlamlığı ilə bağlı problemlərin həllinə öz töhfəsini verəcək".



Sonra ATU-nun II mamalıq ginekologiya kafedrasının müdiri, professor Hicran Bağırova və ginekologiya şöbəsinin müdiri Turab Canbaxışovun sədrliyi altında sessiyalar keçirilib. Konfransda Azərbaycanla yanaşı, İsraildən gələn mütəxəssislərin də fərqli mövzular üzrə mühazirələri dinlənilib.



Hadassah Universitetinin Hospitalının həkimi Gülnar Nuriyeva "Təkrarlanan düşüklərin etiopatogenezi", Barzilai Medical Centerin əməkdaşı Əhməd Namazov "Anadangəlmə uşaqlıq qüsurların diaqnostikası, müalicəsi", NS Genetics-in əməkdaşı Şirxan Musayev "Abort biomateriallarının genetik təhlili və önəmi", ATU-nun ginekoloqu Nurlana Əmrahova "Hamiləlikdə maqnezium çatışmazlığı: simptomları və müalicəsi", Tədris Cərrahiyyə Klinikasının ginekologiya şöbəsinin müdiri Turab Canbaxışov "Təkrarlanan düşüklərdə antikoagulant və antiaqreqantların elmi-sübutlu istifadəsi", ATU-nun ginekoloqu İslam Mahalov "Artıq çəkili qadınların hamiləlikdə, ginekoloji əməliyyatı sırasında tromboemboliyanın profilaktikası" mövzularında mühazirələrlə çıxış etdilər. Mühazirələr ətrafında müzakirələr də təşkil olunub.

Qeyd edək ki, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən iştirakçılara 2 Davamedici Tibbi Təhsil Balı veriləcək.

# ATU-nun əməkdaşları "İnnovasiya, təhsilin keyfiyyəti və inkişaf" adlı IV Beynəlxalq Elmi Konfransda iştirak ediblər



20-21 dekabr tarixində Azərbaycan Dövlət Pedaqoji Universiteti, Ukrayna Təhsil Menecerləri Universiteti, Başkir Dövlət Pedaqoji Universitetinin birgə təşkilatçılığı ilə "İnnovasiya, təhsilin keyfiyyəti və inkişaf" adlı IV Beynəlxalq Elmi Konfrans keçirilib.

Konfransda "Tədrisin müasir problemləri və idarə edilməsi", "Təhsilin keyfiyyətinin qiymətləndirilməsinin metodologiyası və texnologiyası", "Təhsilin keyfiyyətinin modernləşdirilməsinin psixoloji və sosial-iqtisadi aspektləri" və "Təhsilin keyfiyyətinin yüksəldilməsində innovasiyaların rolu" kimi mövzular müzakirə edilib.

Konfransda ATU-nu təhsilin keyfiyyətinin təminatı və innovasiya şöbəsinin müdiri, professor Akif Qurbanov və şöbənin əməkdaşı G. Sultanova təmsil ediblər. A. Qurbanov "Bacarıqların tədrisinə və qiymətləndirilməsinə müasir yanaşmalar" adlı məruzə ilə çıxış edib. Məruzə iştirakçılar tərəfindən xüsusi maraqla qarşılanıb.

**ATU-nun mətbuat xidməti**

# ATU-da "Yenidoğulma dövrünün aktual problemləri" adlı simpozium keçirilib

**Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında neonatologiyanın müasir aktual problemlərinə həsr olunmuş "Yenidoğulma dövrünün aktual problemləri" adlı simpozium keçirilib.**





ATU-nun elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov neonatal xidmət səviyyəsinin qaldırılması üçün Azərbaycanda bir çox işlər aparıldığını, müasir təchizatların alındığını və neonatal mərkəzlərin açıldığını qeyd edib: "Bu gün tədbirimizdə bir çox aktual mövzulara toxunulacaq. Bütün bunlar uşaq ölümünün azalması, neonatal tibbin inkişafı üçün çox əhəmiyyətlidir. Tədbirdə Türkiyədən gələn qonaqlar da iştirak edir. İnanıram ki, onların da iştirakı ilə keçiriləcək müzakirələr, səslənəcək mühazirələr bu işin gələcək praktikada tətbiqinə kömək edəcək".

Simpoziumda Türkiyənin Sanko Universitetinin dosenti Yusuf Ünal Sarıkabadayı "Yenidoğulmuşlarda infeksiyalar. Sepsis. Meningit", ATU-nun I uşaq xəstəlikləri kafedrasının professoru Səfixan Həsənov "Perinatal asfiksiya. Yenidoğulmuşlarda poliorgan çatmamazlığı", Sağlık Bilimleri Universitetinin dosenti Fuad Emre Canpolat "Hipoksik İşemik Ensefalopatiya. Hipotermiya" mövzularında ətraflı çıxış ediblər.

Simpozium işini məruzələr ətrafında müzakirələrlə davam etdirib.

# Əməkdar elm xadimi Elxan Kərimovun xatirəsi yad olundu

**Dekabrın 27-də Azərbaycan Tibb Universitetinin Ortopedik stomatologiya kafedrasında əməkdar elm xadimi, əməkdar həkim Elxan Kərimovun anım mərasimi keçirilib. Tədbir iştirakçıları mərhumu bir dəqiqəlik sükutla yad ediblər.**





Tədbirdə giriş sözü ilə çıxış edən kafedra müdiri, professor Nazim Pənahov E.Kərimovun həyat və fəaliyyəti haqqında məlumat verdi. Bildirdi ki, əməkdar həkim Elxan Kərimov 1938-ci ildə Göyçayda anadan olub. 1959-1964-cü illərdə Azərbaycan Tibb İnstitutunun stomatologiya ixtisası üzrə təhsil alıb. 2000-ci ildə Azərbaycanın əməkdar həkimi, 2010-cu ildə isə «Əməkdar elm xadimi" adına layiq görülüb. O, həm də Səhiyyə Nazirliyi Həkimlərin Attestasiyası Komissiyasının sədri olub. Mərhum 1990-cı ildən etibarən ATU-nun ortopedik stomatologiya kafedrasına rəhbərlik edib.

Sonra çıxış edənlər də mərhum haqqında xatirələrini bölüşüblər. Ağız və üz çənə cərrahiyyəsi kafedrasının dosenti Əkbər Hüseynov, ağız və üz-çənə cərrahiyyəsi kafedrasının professoru Yunus Yusubov, "Təbib" idman klubunun rəhbəri Kamal Kəbirlinski, ortopedik stomatologiya kafedrasının professoru Zöhrab Qarayev, ağız və üz-çənə cərrahiyyəsi kafedrasının professoru Tamara Hüseynova, terapevtik stomatologiya kafedrasının dosenti Faiq Musayev, ağız və üz-çənə cərrahiyyəsi kafedrasının müdiri, professor Çingiz Rəhimov, Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun professoru Mahir Əliyev, Əlikram Hacıyev, ATU-nun stomatologiya fakültəsinin dekanı Səid Əhmədov unudulmaz alim Elxan Kərimovun elm sahəsindəki nailiyyətlərindən söz açıblar.

Həyat yoldaşı Xalidə Kərimova isə çıxışında Elxan Kərimovun xatirəsinin ehtiramla yad edildiyi, tədbirdə onun barəsində deyilən xoş sözlər üçün hər kəsə təşəkkürünü bildirib.

# "Bud-qalça və diz artroplastikasının aktual problemləri"nə dair seminar

- **Dekabrın 21-də Tədris Cərrahiyyə Klinikasında Azərbaycan Tibb Universiteti və Türkiyənin Özəl Medicabil Xəstəxanasının birgə təşkilatçılığı ilə "Bud-qalça və diz artroplastikasının aktual problemləri"nə dair seminar keçirilib.**




ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Nadir Zeynalov açılış nitqində bütün seminar iştirakçılarını salamlayaraq bu birgə layihənin təşkilatçıları arasında rəsmi əməkdaşlığın mövcud olduğunu bildirib: "Əməkdaşlarımız tez-tez müştərək elmi toplantılar keçirsələr də, ilk dəfədir ki, daha böyük miqyasda birgə seminar təşkil edirik. Bizim müraciətimiz əsasında Səhiyyə Nazirliyi toplantımızı 4 Davamedici Tibb Təhsili Balı ilə dəyərləndiribdir ki, bu da sevindirici haldır. Ona görə də bu gün həm çox maraqlı məruzələr eşidəcək, həm də bizə bir neçə müddətə lazım olan kreditləri toplaya biləcəyik".

Özəl Medicabil Xəstəxanasının universitetimizə ilk dəfə gələn əməkdaşlarının öz klinikalarında tətbiq edilən çox maraqlı idarəetmə sistemi barədə məmnuniyyət hissi ilə məlumat verdiklərini xatırladan N.Zeynalov gələcək əlaqələrin də iki istiqamətdə - elmi əməkdaşlıq və idarəetmə sistemi üzrə qurulacağını söyləyib. Çıxışının sonunda universitetin rektoru, professor Gəray Gəraybəylinin təbriklərini və ürək sözlərini də tədbir iştirakçılarının diqqətinə çatdıran prorektor seminarın işinə uğurlar diləyib.

Tədris Cərrahiyyə Klinikasında xəstələrə göstərilən travmatoloji və ortopedik xidmət haqqında qısa məlumat verən baş həkim, professor Ramiz Poluxov qeyd edib ki, klinika fəaliyyətə başlayanadək travmatologiya və ortopediya kafedrasında əsas istiqamət travmatologiya üzrə idi. Ancaq 2014-cü ildən sonra aparılan əməliyyatların demək olar ki, 90 faizini ortopedik əməliyyatların təşkil etdiyini söyləyən baş həkim bilgilərini və təcrübələrini paylaşan hər iki klinikanın mütəxəssisləri üçün bugünkü seminarın faydalı olacağını deyib.

Travmatologiya və ortopediya kafedrasının müdiri, professor Əhməd Əhmədzadə bildirib ki, bu cür seminarları keçirməkdə məqsədimiz rezidentlərə, o cümlədən gənc həkimlərə bu sahəni dərindən mənimsətmək, gələcəkdə problemlərə elmi nöqteyi-nəzərdən yanaşmağı aşılamaqdır: "Bu gün diz, bud-çanaq oynağı artrozları bütün dünyada, həmçinin Türkiyədə və Azərbaycanda bir nömrəli sosial problemdir. İnsanları əlilliyə gətirib çıxaran başlıca səbəblərdən biridir. Bu problemin həlli üçün ortopedlər uzun illərdir axtarış aparır, yeni metodlar işləyib hazırlayırdılar. Bilirsiniz ki, artroz zamanı qığırdaq toxuması müxtəlif səbəblərdən zədələnir və proses davam etdikcə amortizasiya xüsusiyyətini itirir. Bu zaman vurulan iynələr, qəbul edilən dərmanlar müvəqqəti xarakter daşıyır və yekunda heç bir müsbət nəticə alınmayanda artıq cərrahi müalicəyə keçilir. Qarşımızda duran ən vacib vəzifələrdən biri də endoprotezlərin tətbiqindən sonra baş verə biləcək fəsadları minimuma endirməkdir".

İlk endoprotezlərin hazırlanması tarixinə də toxunan professor tibbi texnologiyanın inkişafı sayəsində müasir endoprotezlərin yaradıldığını və gələcəkdə daha da təkmilləşdirləcəyini vurğulayıb.

Ayrı-ayrı zaman kəsiyində mövcud tələb və şəraitə uyğun olaraq ortopediyanın Azərbaycanda inkişaf mərhələlərindən də söhbət açan



Ə.Əhmədzadə vaxtilə professor Eldar Abbasovun artroloji mərkəz yaratdığını, endoprotezlərin uğurlu tətbiqini yada salıb. Hal-hazırda Tədris Cərrahiyyə Klinikasında ildə 300-ə yaxın endoprotezləşdirmə əməliyyatının aparıldığını diqqətə çatdıran professor türkiyəli kolleqalarla qarşılıqlı əlaqələrin genişlənməsindən, Azərbaycan alimlərindən Aydın Qəhrəmanov, Eldar Abbasov, Cəfər Nəsirli, İsmixan Matıyev və başqalarının Türkiyədə kifayət qədər tanınmasından məmnunluğunu dilə gətirib.

Seminarda çıxışı zamanı ilk növbədə yaradılan şəraitə görə sayın rektor, professor Gəray Gəraybəyli başda olmaqla ATU-nun rəhbərliyinə nümayəndə heyəti adından təşəkkürünü bildirən Özəl Medicabil Xəstəxanasının qurucusu, aparıcı ortoped və rekonstruktiv cərrah, professor Ömer Faruk Bilgen qarşılıqlı ilişgilərin davamlı olacağına əminliyini ifadə edib.

"Biri-birimizə öyrədəcəyimiz çox şeylər var. İrəliyə doğru getmək üçün birlikdə çaba göstərməyimiz, bilgi alış-verişində bulunmağımız lazımdır" – deyən türkiyəli alim 30 ilə yaxındır ki, ortopediya sahəsində uğraşmağa başladığını diqqətə çatdıraraq öz fəaliyyəti haqqında ilginc məlumatları da seminar iştirakçıları ilə bölüşüb.

Bundan sonra seminarın elmi bölümlərində Azərbaycan və Türkiyə alimlərinin müxtəlif mövzularda maraqlı məruzələri dinlənilib.

**ATU-nun mətbuat xidməti**
**Fotolar Cənnətalı Çingizindir**

# İnsan anatomiyası və tibbi terminologiya kafedrasında növbəti kollokvium keçirilib

**Bir neçə il öncə Azərbaycan Tibb Universitetinin insan anatomiyası və tibbi terminologiya kafedrasında tətbiq edilən yenilik artıq öz müsbət nəticələrini verməkdədir. Bu barədə kafedranın müdiri, professor Vaqif Şadlinski bildirib.**



Onun sözlərinə görə, semestr ərzində tələbələr 3 dəfə kollokvium verirlər: "Bu kollokviumun nəticələri tələbənin semestr ərzində əsas göstəricisi hesab olunur. Semestr ərzində qazandığı qiymətlərin ən önəmlisi bu kollokviumun nəticələridir. Gündəlik sorğu istisna olmaqla, kollokvium qiymətləri digər sorğuların birləşdirilməsi nəticəsində tərtib edilən bilet əsasında yazılır. Kollokvium balı gündəlik qiymətdən bir bal artıq hesab edilir. 15 həftəlik qiymət son kollokvium zamanı elektron sorğu vasitəsilə İmtahan Mərkəzinə göndərilir. 3 kollokviumun nəticəsində tələbələrin imtahana buraxılıb-buraxılmayacağı dəqiqləşdirilir".

V.Şadlinski bildirir ki, mühazirələrin 40 faizdən çoxuna, yəni anatomiyadan 3 mühazirəyə gəlməyən tələbə imtahana buraxılmır: «Çünki anatomiyada mühazirələrin sayı azdır. Bu tələb həm Boloniya sisteminə görə, həm də ATU-nun Elmi Şurasının qərarına əsasən belə formalaşdırılıb".

Balların verilməsinə gəlincə, tələbənin semestr ərzində ilkin balı ümumi hesablanır. Bu zaman minumum 10 bal dərsə davamiyyətə, 10 bal referatların verilməsinə, 10 bal isə minimum qiymətə görə təyin olunub. Dərsə davamiyyət və referata görə maksimum 10 bal nəzərdə tutulub. Lakin biliyin qiymətləndirilməsinə daha artıq bal, hətta 30 bal da vermək olur".

Professorun sözlərinə görə, tələbələrin biliyinin qiymətləndirilməsi məqsədilə keçirilən imtahanda obyektivliyin təmin olunması üçün biletlər 12 variantda hazırlanır. Biletə salınan suallarda təkrarçılığın qarşısını almaq üçün fərqli mövzulardan istifadə olunur.

Professor son vaxtlar yazılı imtahan zamanı tələbələrin müxtəlif növ gizli cavablardan, müəyyən aparatlardan istifadə etməsindən də gileyləndi. Onun sözlərinə görə, tələbələr imtahan zalına girməzdən əvvəl telefonları təhvil versələr də, digər cihazları otağa keçirirlər. Bəzən isə biletlərin dəyişdirilməsinə nail olurlar. Buna görə də V. Şadlinski imtahana nəzarətin gücləndirilməsinin vacib olduğunu bildirir.

İmtahanda iştirak edən tələbələr yeni sistemin tətbiqindən razı qaldıqlarını, imtahan suallarının keçilən kursdan kənara çıxmadığını bildirdilər.

Müalicə-profilaktika fakültəsinin I kurs, 118[a-7-a] qrup tələbəsi Pünar Musayeva imtahanların bu formada təşkilini bəyənir: "Çünki şifahi sorğu-sual zamanı bəzən insan özünü itirir, fikirini tam izah edə bilmir. Amma belə olan halda rahatlıqla fikrimizi cəmləşdirib suallara cavab yazırıq".

I müalicə profilaktika fakültəsinin I kurs tələbəsi Validə Əhmədova da dərs və sınaqların təşkilindən razılığını bildirdi: "Dərsin mənimsənilməsi üçün kafedrada hər cür avadanlıq var. Bu tip imtahan prosesi çox rahatdı. Sualların hamısı keçdiyimiz mövzuları əhatə edir".

Müalicə-profilaktika fakültəsinin I kurs tələbəsi Elçin Namazov da imtahan prosesinin onu qane etdiyini deyir: «Suallarda bütün dərslər əhatə olunur. Çətinlik çəkdiyimiz sualları müəllimlərlə müzakirə edə bilirik. İmtahanın yazılı olması yaxşıdır. Amma məncə, 4 sual üçün 90 dəqiqə vaxt verilməsi azdır, vaxt məhdudiyyətinə görə biliklərimizi tam ifadə edə bilmirik".

İngilis dili qrupunda təhsil alan tələbələrdən Sinan Mərhubi, Məhəmməd Yaqub, Röya Ələkbərova, Jalə Rüstəmova, Məhəmməd Əl Tolqani, Benan Yücelik də onlara düşən suallardan və imtahanın prosesdən razılıqlarını bildiriblər. Universitetdə onlara yaradılan şəraitdən, tədrisin keyfiyyətindən, tərtib olunmuş sualların dərsdənkənar salınmadığını xüsusi vurğulayıblar. Tələbələrin əksəriyyəti imtahana hazır olduqlarını, onlara düşən suallara cavab verməkdə çətinlik çəkmədiklərini, uğur qazanacaqlarını əminliklə qeyd ediblər.

# ATU-da təcrübəni bitirən ərəb tələbələrinə sertifikatlar verildi

**İl ərzində dünyanın hər yerindən qonaq qəbul edən Azərbaycan Tibb Universitetində bu dəfə Birləşmiş Ərəb Əmirliklərinin Tibb və Sağlamlıq Elmləri Universitetinin nümayəndələri qonaq olub.**



Nümayəndə heyəti ilə görüşdə ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Nadir Zeynalov indiyədək universitetin Birləşmiş Ərəb Əmirliklərinin ali məktəbləri ilə təmaslarının olmadığını, ilk əməkdaşlığın məhz bu universitetlə qurulduğunu bildirdi. N.Zeynalov BƏƏ-nin Tibb və Sağlamlıq Elmləri Universiteti ilə əlaqələrin qurulmasında, birgə fəaliyyətin həyata keçirilməsində böyük zəhməti keçən Sabrin xanım Ali Azimə təşəkkürünü çatdırıb: "Çox şadıq ki, bu ilk addım məhz Tibb və Sağlamlıq Elmləri Universiteti ilə atılır. ATU-nun məzunu olan Sabrin xanım sonradan universitetimizin ağız və üz-çənə cərrahiyyəsi kafedrasında ordinatura keçib, namizədliyini müdafiə edib. Sabrin xanım həm də xarici tələbələr arasında ilk dəfə olaraq ATU-nun elmi cəmiyyətində uğurlu çıxışları ilə seçilib". Nadir Zeynalov Sabrin Ali Azimin köməyilə adı çəkilən universitetlə uğurlu əməkdaşlığın davam etdiriləcəyindən əmin olduğunu bildirdi.



ATU-nun Tədris Cərrahiyyə Klinikasının direktoru, professor Surxay Hadıyev rəhbərlik etdiyi klinika haqqında məlumat verərək bu müəssisənin artıq ölkə hüdudlarından kənarda da tanındığını qeyd etdi: "Azərbaycan Tibb Universiteti və Tədris Cərrahiyyə Klinikası artıq xarici ölkələrdə də kifayət qədər tanınır. Biz təcrübə mübadiləsi üçün müxtəlif ölkələrdən tələbələri qəbul edirik. Ümid edirəm ki, BƏƏ universietləri ilə də bu cür əməkdaşlıq uğurlu alınacaq".

ATU-nun ağız və üz-çənə cərrahiyyəsi kafedrasının müdiri, professor Çingiz Rəhimov BƏƏ-nin Tibb və Sağlamlıq Elmləri Universitetindən tələbələrin ilk dəfə olaraq məhz bu kafedrada mübadilə keçdiyini bildirdi və bundan məmnunluğunu ifadə etdi: "Belə məsələdə birinci olmaq çətin və şərəflidir. Bu təcrübəni keçmək üçün təşəbbüs irəli sürdük, çətin olsa da, nəticə uğurlu alındı. Tələbələr işimizdən razı qaldıqlarını bildirdilər. Bu, çox sevindirici haldır".

Çingiz Rəhimov bundan sonra digər sahələrdə də əməkdaşlığın yaranacağından ümidvar olduğunu bildirdi.

Birləşmiş Ərəb Əmirliklərinin Tibb və Sağlamlıq Elmləri Universitetinin ağız və üz-çənə cərrahiyyəsi kafedrasının assistenti Sabrin Ali Azim əməkdaşlıq üçün şəraitin yaradıldığına görə ATU-nun rəhbərliyinə, xüsusi olaraq rektor Gəray Gəraybəyliyə təşəkkürünü bildirdi: "Son illər ərzində ATU-da böyük dəyişikliklər, ciddi islahatların apaıldığının şahidiyik. Xarici ali məktəblərlə əlaqələrin qurulmasına da diqqət artırılıb. Bu, bizi də çox sevindirir. ATU ilə əməkdaşlığı davam etdirəcəyimizə, gələcəkdə digər birgə layihələrin icra olunacağına inanırıq".

Görüşün sonunda ATU-da təcrübə keçən ərəb tələbələrinə sertifikartlar təqdim olundu. Gənclər kursdan məmnun qaldıqlarını, ATU-da keçdikləri praktikanın onların gələcək karyeraları üçün böyük təkan olacağını bildirdilər.

# Universitetin əməkdaşı Moskvada keçirilən konqresdə çıxış edib

**Dekabrın 12-14-ü arası Moskvada, Rusiya Prezidenti yanında Rusiya Xalq Təsərrüfatı Akademiyasında Rusiya Uşaq İnfeksionistlərinin XVII Konqresi keçirilib.**

Konqresdə Avropa ölkələri ilə yanaşı, MDB məkanından da xeyli infeksionist iştirak edib. Adıçəkilən konqresdə ölkəmizi ATU-nun yoluxucu xəstəliklər kafedrasının dosenti, Tədris Cərrahiyyə Klinikasının infeksion nəzarət şöbəsinin müdiri Sədrəddin Atakişizadə təmsil edib. Onun "Cərrahi klinikalarda xəstəxanadaxili infeksiyaların etioloji strukturu" mövzusunda etdiyi çıxış həmkarlarının diqqətini çəkib. Mövzunun aktuallığı və bir çox məsələlərə fərqli yanaşma tərzi geniş müzakirələrə səbəb olub.

Tədbirin sonunda ATU-nun təmsilçisi həmkarlarını maraqlandıran çoxsaylı suallara ətraflı cavab verib.




# Əməkdaşlarımız Türkiyədə keçirilən konqresdə iştirak ediblər



Dekabrın 14 və 15-də ATU-nun Tədris Cərrahiyyə Klinikasının əməkdaşları Türkiyədə keçirilən VIII Türkiyə tiroid xəstəlikləri konqresində iştirak ediblər. Tədbirdə ölkəmizi Azərbaycan Tibb Universitetinin I cərrahi xəstəliklər kafedrasının assistenti Azər Hümbətov və rezident Araz İsmayılov təmsil ediblər. Onlar Azərbaycanın endemik olan və endemik olmayan bölgələrində tiroid düyünlərinin bədxassəlilik xüsusiyyətləri və tiroid xəstəliklərinin rastgəlmə tezliyi haqqında iştirakçılara məlumat veriblər.

**ATU-nun mətbuat xidməti**

# ATU-nun müəllimi Türk Hava Yollarının "Gülümsəyən həkim" cəmiyyətinə üzv qəbul edilib

**Azərbaycan Tibb Universitetinin mikrobiologiya və immunologiya kafedrasının baş müəllimi Cəmilə Talıbovaya Türk Hava Yollarının (THY) rəhbərliyindən təşəkkür məktubu gəlib. Eyni zamanda, o, THY-nın "Gülümsəyən həkim" cəmiyyətinə üzv qəbul edilib. Belə ki, C. Talıbova bundan sonra Türkiyənin milli aviadaşıyıcısının xidmətlərindən istifadə edərkən, əgər ehtiyac yaranarsa, təyyarədə həkim kimi fəaliyyət göstərə bilər. Buna səbəb isə onun bu ilin noyabrın 27-də THY ilə Bakıdan İstanbula uçarkən, yolda halı pisləşən bir sərnişinə yardım etməsi olub.**


TURKISH AIRLINES | WIDEN YOUR WORL

Dear Dr. JAMILA TALIBOVA,

In relation with your travel from Baku to Istanbul on 27th of November, 2018 the related cabin chief in charge provided a written report regarding the unfortunate situation that you have experienced.

We would like to offer you our infinite thanks for your medical intervention and your interest to our sick passenge on board during your flight TK333.

Those medical contributions which are totally voluntary actions with your devotion have great importance for us and our sick passengers. It's a pleasure to know that you are always with us and feel that kind of support from you.

Although it is not the equivalent of your medical intervention on board, as a reward if you are still not a member c our Smiling Doctor programme you can earn your bonus miles by joining our " Smiling Doctors " application.

Here is the link shown below to become a member of " Miles&Smiles / Smiling Doctors "

https://www.turkishairlines.com/en-tr/miles-and-smiles/features/smiling-doctors/index.html

Sincerely yours,

Gokhan I.

2005-ci ildə ATU-nun mikrobiologiya və immunologiya kafedrasında çalışan, tibb elmləri üzrə fəlsəfə doktoru olan Cəmilə Talıbova həkimlik sənətinə böyük hörməti və sevgisi olduğunu deyir: "Həkimlik, hər kəsə kömək etmək, əl uzatmaq və lazım gəldikdə "şam kimi yanaraq, ətrafı öz işığına qərq etmək"dir. Elə İstanbul şəhərinə uçduğum təyyarədə də, həkimə ehtiyac olunduğu elanını eşidəndə, tez stüardessalara yaxınlaşdım. Mənə arxa cərgədə oturan qadının vəziyyətinin ağır olduğunu dedilər. Xəstəni müayinə etdikdə, hipertonik kriz keçirdiyi bəlli oldu.

Çantamda ilk tibbi yardım məqsədi ilə daşıdığım dərman preparatlarından xəstəyə yardım etmək istədim. Bu zaman mənə bütün məsuliyyəti öz üzərimə götürmək barədə məlumat verildi və mən məsuliyyəti öz üzərimə götürdüm. Xəstəyə ilk tibbi yardım göstərərək, onu kritik vəziyyətdən çıxartdım. Uçuşun sonuna qədər onun yanında oturub, səhhətindəki vəziyyətini nəzarətdə saxladım. Onunla söhbət etdikcə, lazımi məsləhətlər də verdim. İstanbula çatanadək həm xanımla, həm də ekipaj üzvləri ilə mehriban və dostcasına ayrıldım".

Həmin hadisədən iki gün sonra C.Talıbovanın email ünvanına THY-dan xoş bir məktub göndərilib. Məktubda THY tərəfindən minnətdarlıq və "Gülümsəyən həkim" cəmiyyətinə qəbul haqda məlumat yer alıb. Bundan əlavə, ona 5000 mil uçuş hədiyyə edilib.

# ATU-nun əməkdaşı dünya və Avropa çempionatında hakimlik edib

**Kyokuşin Dünya Birliyinin (Kyokushin World Union) təqvim planına əsasən, Bolqarıstanın Varna şəhərində 12-17 yaşlı yeniyetmə oğlan və qızlar arasında Kyokuşin (mütləq həqiqət) karate üzrə dünya çempionatı keçirilib. Kişilər, qadınlar və veteranlar arasında isə Avropa çempionatı baş tutub.**



Turnirdə 37 ölkədən 750 idmançı və 50 beynəlxalq dərəcəli hakim iştirak edib. Turnirlərdən üç gün əvvəl hakimlər üçün ənənəvi seminarlar və test imtahanları keçirilib. Azərbaycanın ədalət təmsilçisi, Azərbaycan Tibb Universitetinin "Təbib" idman klubunun məşqçi-müəllimi, beynəlxalq dərəcəli hakim, əməkdar məşqçi, 4-cü dan qara kəmər ustası Qələndər Aslanov da hakimlik üçün rəsmi dəvət alıb.

Dünya Kyokuşin Birliyi Hakimlər kollegiyasının üzvü olan Q. Aslanov artıq ikinci dəfədir ki, dünya çempionatının tatami meneceri seçilib. Bu etimadı doğruldan təmsilçimiz öz həmkarlarını döyüş qaydalarındakı dəyişikliklərlə tanış etməklə, 3 gün təcrübi sınaqlardan keçirib. Gərgin keçən yüngül və orta çəkili idmançıların yarımfinal və final döyüşlərini idarə etmək üçün ən yaxşı hakimlərdən ibarət briqada təyin olunub. Ədalət təmsilçimiz mərkəz hakimi olaraq müxtəlif çəkilərdə qadın və kişilərin 40-dan çox döyüşlərini idarə etmək üçün tatamiyə çıxıb. Gərgin döyüşlər zamanı bir çox mübahisəli anlar yaşanıb. Həmin anlarda Q. Aslanov qaydalara uyğun olaraq peşəkar videoçəkilişləri izləməklə düzgün qərarlar verib.

Qeyd edək ki, Qələndər Aslanov əvvəlki illərdə keçirilən Avropa və dünya çempionatlarında qərəzsiz hakimliyinə və test imtahanlarında "mükəmməl" yüksək bal aldığına görə sertifikatlarla təltif olunub.

# ATU tələbələri Milli Onkologiya Mərkəzində müalicə alan azyaşlı uşaqlar və yeniyetmələr üçün Yeni il münasibətilə şənlik keçirib

**Azərbaycan Tibb Universitetinin tələbələri Milli Onkologiya Mərkəzində müalicə alan azyaşlı uşaq və yeniyetmələr üçün Yeni il və Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə şənlik təşkil ediblər.**

Mərasimdə musiqili əyləncə və oyunlar təşkil edilib, viktorinalar, eyni zamanda da maraqlı sual-cavab yarışması keçirilib. Şaxta baba, Qar qız, şən klounların iştirakilə keçən şənlikdə uşaqların hər birinə yaşına və səhhət durumuna uyğun hədiyyələr təqdim olunub.

İynə vurulmasından qorxan uşaqlar üçünsə şüuraltı olaraq "İynə vurulsa, daha tez sağalarıq!" mesajını verən gözəl bir səhnəcik də təşkil edilib. Beləliklə, şənlik uşaqlardakı depressiyanın aradan qalxmasına kömək olub, həm də passiv balacaları hərəkətli olmağa cəlb edib.



Tədbir təşkilatçıları bildirir ki, şənik zamanı keçirilən oyunlar bir daha göstərib ki, dostluq və sevgi nəticəsində uşaqlar qarşılarına çıxan bütün çətinlikləri aşa biləcəklər. Təsadüfi deyil ki, tədbirdən iki gün sonra üç körpə tam sağalıb xəstəxanadan çıxıb, bir körpədə isə qanyaranma prosesi yenidən aktivləşib.

Təşkilatçılar şənliyin yüksək səviyyədə keçirilməsinə maddi və mənəvi dəstək olan hər kəsə - ATU-nun və digər universitetlərin tələbələrinə, Milli Onkologiya Mərkəzinin tibb heyətinə təşəkkür edirlər.

"Unutmayaq! Heç bir xəstəlik, hətta xərçəng belə Allahın bərabərsiz və qüsursuz yaratdığı vücudlardan güclü deyil! Bəzən bir xoş söz belə bütün problemləri həll edir. Əl-ələ versək, məğlub edə bilməyəcəyimiz bir şey yoxdur!" Odur ki, ATU tələbələri bu körpələrə və ehtiyacı olan digər insanlara kömək etmək istəyənlərə "Ümidli qəlblər" xeyriyyə qrupu ilə əlaqə yaratmağı məsləhət görür. yulmuş diaqnoz həyatı xilas edə bilər.

# "Conversation Club"da müzakirələr təşkil olunur

**ATU-nun Tələbə Gənclər Təşkilatının nəzdində yeni yaradılan "Conversation club" fəaliyyətə başlayıb. Təşkilatın sədri Rauf Vəliyevin verdiyi məlumata görə, klubun təşkilatçılığı ilə hər həftəsonu tam ödənişsiz olaraq alman, rus, ingilis dillərində söhbət və müzakirələr təşkil olunur.**





İlk həftə təşkil olunan müzakirələri alman dili üzrə müalicə-profilaktika fakültəsinin VI kurs tələbəsi Kamran Məmmədov, ingilis dili üzrə isə həmin fakültənin IV kurs tələbəsi Ədalət Gəncəliyev aparıb.

R.Vəliyev bildirib ki, "Conversation Club"un növbəti həftələrdə keçirəcəyi müzakirələrdə iştirak etmək istəyən tələbələr TGT-nin Facebook və İnstagram səhifələrində kluba üzv olub qeydiyyatdan keçə bilərlər.

# Tələbələrimiz Azərbaycan Təbabəti Muzeyini ziyarət ediblər

**Azərbaycan Tibb Universitetinin Tələbə Gənclər Təşkilatı universitetin Tələbə Həmkarlar İttifaqı ilə birlikdə yeni layihə icra edir. "Çox gəzən, çox bilər" adlı bu layihənin məqsədi tələbələrin asudə vaxtını səmərəli keçməsini təmin etmək, həm də onların müxtəlif sahələr üzrə biliklərini artırmasına yardımçı olmaqdan ibarətdir.**



Bu layihə çərçivəsində ilk gəzinti bu günlərdə Azərbaycan Təbabəti Muzeyinə təşkil olunub. Ziyarət zamanı təşkilatçılar Cavid Mustafazadə, Rəşad Məmmədli və Gülnur Rüstəmova tələbələri muzeydəki stendlər haqqında məlumatlandırıblar, səhiyyəmizin cümhuriyyət dövründən bu günədək keçdiyi inkişaf yolunu əks etdirən eksponatlarla onları tanış ediblər.

Sonda tələbələr muzey və gəzinti haqqında fikirlərini buradakı xatirə dəftərinə qeyd ediblər. Layihə çərçivəsində hər ay ATU-nun tələbələrinin müxtəlif maraqlı məkanlara gəzintiləri təşkil olunacaq.

## Allah rəhmət eləsin!

ETM-in əməkdaşları toksikologiya şöbəsinin müdiri Rəna Cəfərovaya əzizi

**Adilə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüzünlə baş sağlığı verirlər.

---

Travmatologiya və ortopediya kafedrasının əməkdaşları şüa diaqnostikası və terapiyası kafedrasının assistenti

**Gülnarə Əhmədovanın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüzünlə baş sağlığı verirlər.

---

Yoluxucu xəstəliklər kafedrasının əməkdaşları kafedranın dosenti Mirzamin Muxtarova əzizi

**Misir Səfərovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüzünlə baş sağlığı verirlər.

## Etibarsız sayılır

II müalicə-profilaktika fakültəsinin I kurs, 218$^{i-a-2a}$ qrup tələbəsi Hussein Mustafa Merner Husseinin adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

---

Hərbi tibb fakültəsinin VI kurs, 1150$^{a}$ qrup tələbəsi Ələsgərli Saleh Fizuli oğlunun adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

---

Əczaçılıq fakültəsinin IV kurs, 841$^{b}$ qrup tələbəsi Abbaszadə Seyidağa Elçin oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

---

I müalicə-profilaktika fakültəsinin IV kurs, 10$^{a}$ qrup tələbəsi Əhmədov Kamran Vaqif oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

---

II müalicə-profilaktika fakültəsinin V kurs, 245$^{b}$ qrup tələbəsi Murat Çiftçinin adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

---

Stomatologiya fakültəsinin IV kurs, 700$^{a}$ qrup tələbəsi Taner Mehmet Ali Mahmut oğlunun adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98$^{c}$
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 1800